QURANIN QİRAƏT və TƏCVİD QAYDALARI

(yeni redaktə)



BİRİNCİ DƏRS

Həzrət Peyğəmbər (s) buyurub: "Sizin ən yaxşınız Quranı öyrənib, başqalarına öyrədəndir." (Kənzul-ummal, c. 1, hədis: 2351.)

ƏRƏB ƏLİFBASI HAQQINDA ÜMUMİ MƏLUMAT

Ərəb əlifbasında 28 hərf[1] vardır. Ərəb əlifbasındakı hərflər yalnız samit səsləri bildirir. Sait səslər isə "hərəkə" adlanan xüsusi işarələrlə ifadə olunur.

Hər bir dildə olduğu kimi, ərəb əlifbası hərflərinin özünəxas adı, yazılışı və tələffüzü vardır.

Ərəb dilində oxumağı və yazmağı öyrənənlər ərəb hərflərinin düzgün tələffüzünə və yazılışına xüsusi diqqət yetirməlidirlər.

Qeyd edək ki, ərəb hərflərinin adlarını düzgün öyrənmək "muqatta`a hərflər"in[2] oxunuşunda olduqca əhəmiyyətlidir.

Ərəb hərfləri bizim hərflərdən fərqli olaraq sağdan sola yazılır və oxunur. Ərəb hərfləri böyük və kiçik hərflərə bölünmür.


Bir qayda olaraq, sözlər hərflərin birləşməsi ilə əmələ gəlir və ərəb hərfləri birləşərkən onun birləşən forması sərbəst formasından bir qədər fərqlənir. Buna görə də hərflərin təlimində hərfin həm sərbəst, həm də birləşən forması cədvəldə göstərilmişdir.

[1] Bəzi ərəb dilçiləri ərəb əlifbasında 29 hərfin olduğunu bildirirlər, çünki onlar "məddi-əlif"i də əlifbanın hərflərindən biri hesab edirlər.
[2] Kitabda "muqatta`a hərflər" barədə ətraflı məlumat verilib.

Ərəb əlifbasının birinci hərfi "əlif" adlanır.

Yazılışı:

Hərfin adı	Birləşən forması	Sərbəst forması
əlif	ـا	ا



Tələffüzü:

"Əlif" hərfi öz-özlüyündə heç bir səs bildirmir. Əlif hərfi ancaq köməkçi vəzifələr daşıyır. Gələcək dərslərdə əlifin köməkçi vəzifələri ilə tanış olacaqsınız.

ƏRƏB ƏLİFBASININ 2, 3 VƏ 4-CÜ HƏRFLƏRİNİN TƏLİMİ

Hərfin adı	Birləşən forması	Sərbəst forması
bə	بـ	ب
tə	تـ	ت
sə	ثـ	ث



Qeyd: Qeyd olunduğu kimi, ərəb hərfləri sağdan sola yazılır. Buna görə də hərflər birləşərkən hərfin sərbəst forması sol tərəfdən açılır və uzanan xətt, "birləşdirici xətt" rolunu oynayır. Amma qeyd etmək lazımdır ki, əlif hərfi və əlifdən əlavə ərəb əlifbasının

digər beş hərfi[1] özündən sonrakı hərfə birləşmir, yalnız özündən əvvəlki hərfə birləşir. Buna görə də cədvəldə onların "birləşən forması" göstərilərkən "birləşdirici xətt" hərfdən əvvəldə (yəni hərfdən sol tərəfdə deyil, sağ tərəfdə) müşahidə olunur. "Əlif" hərfinin birləşən formasına diqqət yetirin!

Tələffüzü:

Qeyd: Ərəb əlifbasındakı hərflərin ifadə etdiyi səslərin bir qismi azərbaycan dilində olduğu kimi tələffüz edilir, bir qismi isə fərqli tələffüz edilir. Azərbaycan dilindəki səslərdən fərqli tələffüz edilən ərəb səslərinin tələffüz qaydası cədvəldə izah olunub. Bilməlisiniz ki, ərəb hərflərinin ifadə etdiyi səsləri düzgün tələffüz etmək olduqca mühümdür.

Hərfin adı	Səsi	Tələffüzü
bə	**b**	Azərbaycan dilindəki "b" səsi kimi tələffüz edilir. İncə səslənir.
tə	**t**	Azərbaycan dilindəki "t" səsi kimi tələffüz edilir. İncə səslənir.
sə	**s̲**	Azərbaycan dilindəki "s" səsindən fərqlənir. Dilin ucu yuxarı qabaq dişlərin arasından azacıq çıxmaqla pəltək və incə tələffüz edilir.

[1] Bunlar "dəl", "zəl", "ra", "zə" və "vəv" hərfləridir. Bir qədər irəlidə bu hərflərlə tanış olacaqsınız.

Qeyd: 1) Nəzərinizə çatdırırıq ki, azərbaycan dilindəki səslərdən fərqli tələffüz edilən müəyyən səsləri transkripsiyada göstərmək üçün xətt, nöqtə və apastrof kimi şərti işarələrdən istifadə edilir:[1]

– pəltək və incə tələffüz edilən hərflərin altından xətt çəkilir;
– qalın tələffüz edilən hərflərin altında nöqtə qoyulur;
– "həmzə" və "əyn" hərflərinin (bu hərflərlə gələcək dərslərdə tanış olacaqsınız) ifadə etdikləri səslər apastrofla yanaşı göstərilir:

həmzə **(ء)** – [ʼ] (apastrof)

əyn **(ع)** – [ʻ] (əyri apastrof)

2) Hərfləri tələffüz edərkən səsin xaric olduğu yer, başqa sözlə desək, səsin əmələ gəldiyi və tələffüz edildiyi yer "Qiraət və Təcvid" elmində "məxrəc" adlanır. Hər bir hərfin müəyyən məxrəci vardır. Bu barədə geniş məlumatı kitabın "Təcvid" hissəsində əldə edəcəksiniz.

HƏRF BİRLƏŞMƏLƏRİ

(bb) – بب   (bbb) – ببب

(t̲t̲) – تت   (t̲t̲t̲) – تتت

(s̲ s̲) – ثث   (s̲ s̲ s̲) – ثثث

Qeyd: Bu hərf birləşmələrində gördüyünüz kimi, eləcə də bütün sözlərdə sözün sonuncu hərfi həmişə hərfin sərbəst formasında yazılacaqdır.

[1] Bu şərti işarələrdən orta ümumtəhsil və ali təhsil müəssisələri üçün tərtib edilən ərəb dili dərsliklərində istifadə olunub.